# Pandemiya şəraitində Azərbaycanın humanist addımları beynəlxalq müstəvidə ölkəmizin nüfuzunu daha da gücləndirir

Azərbaycan Prezidenti İlham Əliyev isə "Biz birlikdə güclüyük" çağırışı əsasında respublikamızda koronavirusa qarşı mübarizə tədbirlərinə başlanıldığı ilk gündən ölkə vətəndaşlarının sağlamlığının qorunması, pandemiyaya qarşı mübarizənin gücləndirilməsi bir nömrəli vəzifə kimi qarşıya qoyulub, bütün dövlət qurumlarına əsas diqqəti bu sahəyə yönəltməyi tapşırılıb. Ölkə rəhbəri tərəfindən, eyni zamanda, sosial şəraitin qorunması, işsizliyin səviyyəsinin aşağı salınması, özünüməşğulluğun təmin olunması ilə bağlı 2020-ci il 19 mart tarixli müvafiq sərəncam imzalanıb. Nazirlər Kabinetinin Tədbirlər Planında isə ölkədə məşğulluq məsələlərinə pandemiyanın mənfi təsirinin azaldılması, mövcud şəraitdə sosial rifahın dəstəklənməsi üçün həyata keçiriləcək məqsədəuyğun layihələr geniş yer alıb.

COVID-19-la mübarizə şəraitində iqtisadi inkişaf amilini önə çəkən Prezident İlham Əliyev tərəfindən iqtisadiyyatın şaxələndirilməsi siyasəti də uğurla həyata keçirilir, həmçinin əhalinin məşğulluğu yüksək səviyyədə təmin olunur, işsiz və xüsusi karantin dövründə müvəqqəti işsiz qalan vətəndaşlara yardımların verilməsi reallaşdırılır. Bir sözlə, sosial dəstək tədbirlərinin miqyası genişləndirilməklə bir daha həyata keçirilən siyasətin önündə vətəndaş amilinin dayandığı, eyni zamanda, dövlətimizin başçısının hər bir vətəndaşın Prezidenti olduğu təsdiqlənir.

Bütün bunlar isə hazırda Azərbaycanın dünyada güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin təmin edildiyi respublika kimi tanındığını deməyə əsas verir. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında isə dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Bunun nəticəsidir ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir. Təsadüfi deyil ki, ictimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların

***Artıq neçə aydır ki, dünya əhalisi COVID-19 pandemiyası ilə mübarizə şəraitində yaşayır. Dövlətlərin iqtisadiyyatı getdikcə zəifləyir. Hətta yüksək inkişaf dövrünü yaşayan bir çox ölkələrdə acınacaqlı sosial şərait hökm sürür.***



Prezident İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşən siyasətə mütləq inam və etimad bəslədiklərindən, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyindən xəbər verir.

Azərbaycan pandemiya ilə mübarizədə nəinki yalnız daxili məsələlərə diqqət yetirir, həmçinin qlobal miqyasda da səmərəli tədbirlər həyata keçirir, dünya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlığa böyük əhəmiyyət verir, humanitar yardımlar göstərir. Prezident İlham Əliyev bu il may ayının 19-da Azərbaycan Televiziyasına müsahibəsində bildirib ki, çətin gündə kimin imkanı varsa, kömək etməlidir, həyatda da, siyasətdə də. Dövlətimizin başçısı daha sonra respublikamızın bir sıra ölkələrə və beynəlxalq təşkilatlara yardım göstərdiyini də deyərək vurğulayıb: "Biz təyyarələrlə yardımlar göndərmişik, yüzlərlə ton yardım göndərmişik. Azərbaycanda istehsal olunan dezinfeksiya vasitələri, qoruyucu vasitələr və digər əşyalar göndərmişik, amma bunu reklam etməmişik. Bunu mənəvi borc bilərək etmişik, o ölkələrə ki, onlar bizə müraciət edib. Biz bilirik, o ölkələrin maliyyə vəziyyəti imkan vermir ki, onlar lazımi tədbirləri görsün. Əminəm ki, bu yardım bir çox insanın həyatını xilas etdi. Əsas məsələ budur".

Dövlətimizin başçısı iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən sammitində də bu barədə deyib: "Koronavirus pandemiyasına qarşı görülmüş tədbirlər bizə vəziyyəti nəzarətdə, itkiləri isə minimum səviyyədə saxlamağa imkan verib. Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırıb. Qoşulmama Hərəkatının 120 üzv ölkəsinin yekdil qərarı ilə 2019-cu ildə təşkilata sədr seçilən Azərbaycan bu il mayın 4-də Hərəkatın COVID-19-a həsr edilmiş onlayn formatda Zirvə görüşünü təşkil etmişdir. Biz Avropa İttifaqı və Afrika İttifaqının həmin tədbirə qoşulmalarını yüksək qiymətləndiririk. Ali nümayəndə cənab Jozep Borelə videomüraciətinə görə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirik ki, bu, Avropa İttifaqı və Qoşulmama Hərəkatı arasında fəal əməkdaşlığın başlanğıcı olacaqdır. Biz, həmçinin BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi iclasının keçirilməsini təklif etmişik. Azərbaycan pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırmışdır. Eyni zamanda, ölkəmiz bu günə qədər 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirməyi planlaşdırır".

Yeri gəlmişkən, Azərbaycan koronavirusla mübarizədə bir sıra ölkələrə maddi və humanitar yardımlar göstərib və bu, hazırda da davam etdirilir. Ümumilikdə Azərbaycandan Çin, İran, İtaliya, Macarıstan, Özbəkistan, Bosniya və Herseqovina, Xorvatiya, Qırğızıstan, Pakistan və Moldovaya humanitar yardımlar edilib. Hazırda Serbiyaya yardımın göndərilməsi istiqamətində iş görülür. Bundan əlavə, BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə Azərbaycan tərəfindən yardım ayrılması nəzərdə tutulur. Bütün bunlar Azərbaycanın koronavirusla mübarizəyə beynəlxalq səviyyədə göstərdiyi mühüm dəstəkdir.

Burada bir məqamı da xatırlatmaq yerinə düşərdi. Belə ki, ölkə rəhbərinin qeyd etdiyi kimi, hazırda dünyada pandemiyanın təsirləri nəticəsində maliyyə vəziyyəti pisləşən 150 ölkə beynəlxalq maliyyə qurumlarına yardım üçün müraciət edib və Azərbaycan bu ölkələrin arasında deyil. Azərbaycan özü 30-dan çox ölkəyə həm maddi, həm də tibbi ləvazimatlarla yardım göndərib. Eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar yardım edib ki, bu da dünyada pandemiyadan zərər görən və pandemiyaya qarşı mübarizə aparmaqda maliyyə cəhətdən əziyyət çəkən dövlətlərə yardım göstərilməsinə imkan verəcək.

Bütün bunlar isə Azərbaycanın beynəlxalq müstəvidə nüfuzunun daha da güclənməsi ilə müşayiət olunur və ölkəmizin humanist, yardımsevər siyasətinin əyani nümunəsi kimi diqqət çəkir.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2020.- 23 iyun.- S. 5.